# BİLİK İQTİSADİYYATINDA İNFORMASİYANIN YERİ

**Gökhan Özkundakçı**

Bakı Mühəndislik Universiteti

*Məqalədə məqsəd bilik iqtisadiyyatında informasiyanın rolunu göstərməkdir. Müəllif informasiya, məlumat və bilik arasında oxşar və fərqli cəhətləri, informasiyanın xüsusiyyətlərini araşdırmışdır. Nəticədə informasiya strateji ehtiyat kimi qiymətləndirilmişdir.*

***Açar sözlər:*** *bilik iqtisadiyyatı, informasiya, verilən, bilik, informasiya təminatı.*

## Giriş

Müasir dövrdə iqtisadi inkişafın bütün səviyyələrində yeni amillər müəyyən edilir, iqtisadiyyatda yeni hadisələr və proseslər baş verir. Alimlər bunun əsas səbəbini bilik iqtisadiyyatına keçiddə görürlər.

Bilik iqtisadiyyatının giriş qapısını "informasiya inqilabı" təşkil edir və onun fərqləndirici xüsusiyyəti gündəlik informasiyadan istifadədir.

İnformasiya ehtiyatları həmişə var idi, ancaq iqtisadi kateqoriyaya aid edilmirdi. Bilik iqtisadiyyatında diqqət və vaciblik ənənəvi ehtiyatlardan informasiya ehtiyatlarına keçir. Klassik iqtisadi kateqoriyalara təbii ehtiyatlar, insan, maliyyə, energetika və s. aid edilirdi. Bildiyimiz kimi, cəmiyyətdə daha çox güc maddi istehsala yönəlir. Maddi istehsalın avtomatlaşdırılması iş güçünü əqli istehsalda, informasiya məhsulu və xidmətində cəmləşdirməyə imkan verir. Bu proses maddi istehsalda informasiya, bilik və əqli ön plana çəkir. B.Kompeyn qeyd etmişdir ki, informasiya həmişə ehtiyat olub, lakin yalnız bu yaxınlarda biz iqtisadçılar informasiyanı maddi və enerji ehtiyatları ilə bir səviyyədə qəbul etməyə başlamışıq.

## 1. İnformasiyanın əsasları

Cəmiyyətin inkişafında informasiya çox geniş məhvum olub bütün elmi sahələrə aiddir və çoxşaxəli xüsusiyyətə malikdir.

*İnformasiya – latın sözü olub(Informatio)- məlumat, izahat, tanışlıq mənalarını daşıyır. Bir çox ədəbiyyatlarda istifadə sahəsindən asılı olaraq bu sözün izahı müxtəlif şəkildə verilir. Məsələn,* vikipediyada: "İnformasiya (lat. *informatio* — məlumatlandırmaq, formaya salmaq) - abstrakt anlayış, hara çatdırılmasından asılı olmayaraq çoxşaxəli məlumat. Təbiətdə və cəmiyyətdə bizi əhatə edən obyektlər, hadisələr, onların xassələri, qarşılıqlı münasibətləri haqqında məlumatlar yığımı olub, onlara dair bilikləri çoxaltmaq məqsədi daşıyır" [1].

Digər mənbədə: "İnformasiya – sistemin tamlığını saxlamaq şərti ilə dəyişilmiş obyektin əks olunmasının nəticəsi, əlaqə formaları vasitəsi ilə ifadə edilməsinə deyilir". Informasiya – bəzi məlumatlar, hər hansı verilənlərin, biliklərin və s. məcmusu ilə ifadə edilən elmin ümumi anlayışlarından biridir" [2].

İnformasiya – insanların bir-biri ilə cəmiyyətə qarşılıqlı münasibəti və ümumiyyətlə dünyanın inkişaf dəyişikliklərini dərk edilməsi vasitəsidir. İnformasiya ilkin və məzmunludur. O, daşıyıçısız mövcüd deyil. İnformasiya səs, yazı, qrafik, görmə, elektrik və s. vasitəsi ilə ötürülür. İnformasiya saxlanılma, ötürülmə, emal və s. xüsusiyyətlərindən asılı olaraq müxtəlif olur. Bu gün ən çox istifadə edilən informasiya növü mətn və elektron informasiyadır.

"İnformasiya"nın tərifi olsa belə o, ümumilikdə dünyanın dərk edilməsinin yeganə vasitəsidir.

Informasiya verilənlərdən alınır. Eyni verilənlərdən istifadəsi zamanı müxtəlif informasiyalar alına bilər. Bu seçilən emal üsullarının adekvatlığından asılıdır.

Verilənlər obyektiv olur, üsullar isə subyektiv. Çünki üsulların əsasını subyektiv hazırlanmış alqoritmlər təşkil edir. Beləliklə, informasiya obyektiv verilənlər və subyektiv üsulların dialektik qarşılıqlı fəaliyyəti anında yaranır və mövcüd olur.

İdarəetmədə informasiya qərar qəbul etmənin tərkib hissəsidir. İdarəetmə də informasiya mənbəyindən asılı olaraq iki yerə bölünür: daxili və xarici. Digər tərəfdən informasiya faktiki və proqnozlaşdırılan ola bilər. Faktiki informasiya həyata keçən faktları xarakterizə edir və dəqiq olur.

Proqnozlaşdırılan informasiya hesablanan və ya təxmin edilən olur və müəyyən xətaya malikdir. İnformasiyanı yaratmaq, ötürmək, saxlamaq, emal etmək mümkündür [3].

**2. İnformasiya, verilənlər və bilik**

Cəmiyyətin və texnologiyaların inkişafı ilə informasiyanın daha yeni xüsusiyyətləri açılır. Digər tərəfdən çox vaxt informasiyanı bilik və verilənlərdən fərqləndirə bilmirik. Bilik informasiya səviyyəsi kateqoriyası ilə müəyyən edilir

Biliklər isə müəyyən faktlar və onlar arasındakı asılılıqlar şəklində ifadə olunur.

Bilik – qoyulan problemi, məsələni həll edən faktlar, qanunauyğunluqlar və qaydaların məcmusudur.

Beləliklə,bilik informasiyanın formalaşması verilənlərin toplanması, ötürülməsi, emalı prosesində baş verir. İnformasiyadan biliyin alınması müxtəlif növ informasiyanın qarşılıqlı əlaqəsinin paylaşması əsasında baş verir. İnformasiya toplanıb və əvvəlcədən müəyyən edilməyən nəticənin alınmasına ötürüləndə bilik əldə edilir.

Əslində öz-özlüyündə informasiya təmiz halda mənasızdır. Burdan da alınır ki, informasiya simvol şəklində tətbiqi vasitələrin köməyi ilə ötürülən kiminsə faktiki biliyidir. İnformasiya təmiz halda ötürülə, qəbul edilə və ya saxlanıla bilməz. Onun daşıyıcısı verilənlərdir. Beləliklə, informasiya daşıyıçısız mövcud deyil [4].

Denxen Qreyə görə: ”...bilik insanların praktiki təcrübəsi, qabiliyyətləri, ideyaları, intiusiya, əqidə və motivasiyası potensialı ilə birgə istifadə edilən informasiya və verilənlərdir”.

Bilik onu informasiyadan ayıran müəyyən xüsusiyyətlərə malikdir:

- Strukturluq. Bilik ”rəflər üzrə düzülməlidir”
- Keçidə və mənimsəməyə rahat. İnsan üçün bu tez başa düşmək və yadda saxlamaq qabiliyyəti biliyə keçid vasitəsidir.
- Lakonik - Məzmunluluq. Lakoniklik biliyi tez mənimsəməyə və emal etməyə imkan verir və “faydalılıq əmsalını” artırır.
- Təkzib etmə. Bilik bir-birini təkzib etməməlidir
- Emal proseduru. Bilik istifadə üçün lazımdır. Biliyin əsas xüsusiyyətlərindən biri – başqasına ötürülməsi və onun əsasında nəticə vermək qabiliyyətidir. Onun üçün buliyin emalı proseduru olmalıdır.

Deməli, emal, nəticə və emal üçün verilənlərin strukturunun hazırlanması prosedurunun sistemlərin nəticə vermək qabiliyyətinin olmasıdır, başqa sözlə xüsusi bilik formatının olmasıdır.

Beləliklə,”bilik”, “informasiya” və “verilənlər” anlayışlarını müqaisə edək. ”İnformasiya” prosesin birbaşa mahiyyəti ilə, “bilik” isə prosesin keyfiyyəti ilə bağlıdır. “Bilik” qərar qəbul etmə prosesini ilə sıx bağlıdır.

Bu anlayışlar fərqli olsalar da əlaqəlidilər. Onlar bir axının hissələridir: girişdə verilənlər durur, onların ötürülməsi prosesində informasiya yaranır və müəyyən şəraitdə informasiyanın istifadəsinin nəticəsində bilik yaranır.

İnformasiya piramidası üzrə yuxarı hərəkət etdikcə verilənlərin həcmi bilik dəyərinə keçir. Verilənlərin həcminin böyüklüyü heç də biliyin alınması deyil və biliyin olmasına zəmanət vermir. Alınan biliyin dəyəri ilə verilənlərin emalı prosedurunun keyfiyyət və gücü arasında müəyyən asıllıq var. Biliyin alınması üçün keyfiyyətli verilənlərin emalı proseduru olmalıdır(şəkil 1).

*İnformasiya* – idarəetmə məsələlərinin həlli üçün istifadə olunan dərk və emal edilən verilənlərdir. Verilənlər təşkilatda və onun sərhədlərindən kənarda baş verən proses və hadisələri əks etdirir. Müəssisənin müvəffəqiyyətli fəaliyyəti üçün kifayət qədər informasiya əldə etmək lazım gəlir. Bunun üçün verilənləri toplamaq, onları işləmək, sonrakı istifadəçilər üçün rahat formaya salmaq və alınan nəticələri istifadəçilərə ötürmək tələb olunur. İstifadəçi yığılaçaq verilənləri dəqiqləşdirə, həmçinin tamlıq, dəqiqlik və alınan nəticələrin təqdim edilmə forması nöqteyi-nəzərindən onların emal üsullarına düzəliş verə bilər.




Şək.1. İnformasiya piramidası

İnformasiya iqtisadiyyatı – iqtisadiyyata yönəlib, informasiyanın iqtisadi qərara təsirini öyrənir. İnformasiyaya qeyd olunmuş meyar kimi baxılır, çünki o asan yayılır, lakin çətin nəzarət edilir. Onu yaratmaq asandır, ancaq ona etibar etmək çətindir, çünki o bir çox qərarlara təsir edir. İnformasiyanın belə xüsusi təbiəti iqtisadiyyata təsir edir [1].

İnformasiyaya onun iqtisadi fəaliyyətdə iştirakı dərəcəsini və onun iqtisadi proseslərə və hadisələrə təsirini müəyyən etmək nöqteyi nəzərindən baxılsa, onda "informasiya – subyektin müəyyən məqsədlərini həyata keçirməyə kömək edən risk və qeyri-müəyyənliyin azaldılması vasitəsidir"[5]. Bu açıqlama informasiyanın vəziyyətdən və onun gələcək inkişafından asılı olaraq qeyri-müəyyənliyi azaltmaq hesabına gəlir gətirmək imkanları nəzərə alınır.

İnformasiya və informasiya iqtisadiyyatında onun ali səviyyəsi olan bilik iqtisadi töhvədir. Çünki onun məğzi fərdləri, iqtisadi aqentləri təmin edir və ehtiyat kimi istifadə edilir.

Bu gün müasir informasiya texnologiyalarının sürətli inkişafı və informasiyanın bolluğu qarşısında onun qəbul edilməsi, istifadəsi şəraətini və yeni biliklərin yaradılması imkanlarını məhdudlaşdıran bir çox amillər mövcuddur. Forması və məzmununa görə informasiya bu və ya digər keyfiyyətə malik ola bilər. Ona görə də, informasiya və biliyin ictimai və ya özəl olmasının sərhədləri dəqiq deyil. Bu da onun mülkiyyət xüsusiyyətlərinin və təhlükəsizliyini tənzimlənməsini çətinləşdirir [6]. Bu baxımdan onun vacib meyarlarından biri informasiyanın kommersiləşdirilməsi və onun istifadəsinin iqtisadi səmərəliliyidir.

Beləliklə, informasiya və bilik mülkiyyət obyekti olduğu kimi eyni zamanda ictimaidir, məsələn, əvvəlki nəsillərin topladığı və elmi-texniki inkişafın əsası olan biliklər ictimai mülkiyyətdir.

Sahibkarlıq fəaliyyətində iqtisadi varlıq kimi informasiya məhsul (informasiya məhsulu, xidməti) kimi dövr edir, təsərrüffat fəaliyyəti prosesində isə ehtiyat kimi istifadə edilir. İnformasiya məhsulları və xidmətləri informasiya bazarında mübadilə edir və emal, istehsal, mübadilə mərhələlərində çoxlu özəlliklərə malikdir [7].

Informasiya iqtisadi məhvumdur və iqtisadi münasibətlərdə ehtiyat kimi iştirak edir və mübadilə üçün spesifik iqtisadi məhsul halında istehsal olunur. Ona görə də vacib məsələlərdən biri informasiyanın ictimai və ya özəl mülkiyyət olmasının müəyyən edilməsidir. Əslində yaranma, məzmunu və istifadə formasına görə informasiya ictimai və ya özəl mülkiyyət ola bilər. Başqa sözlə nə vaxt, harda və necə, nə üçün istifadə edilməsindən asılı olaraq informasiyanın mülkiyyət mənsubiyyəti dəyişə bilər.

Məğzinə görə informasiya ictimai mülkiyyətdir. Lakin müəyyən zaman kəsiyində informasiya özəl mülkiyyət ola bilər. Müəyyən fiksə edilmiş zaman anında müəssisənin potensialının yaranması və inkişafına aid hər hansı daxili informasiyasını nəzərdən keçirə bilərik.

İctimai informasiyanın müxtəlif xüsusiyyətləri və özəllikləri var: istifadə prosesində məhv edilməməsi; eyni zamanda müxtəlif insanlar tərəfindən istifadə edilməsi; müxtəlif hissələrə bölünməsinin çətinliyi. Həmçinin, yayılma zamanı informasiya bütünlükdə öz qiymətliliyini saxlaya bilmir.

Belə nəticəyə gələ bilərik ki, iqtisadi münasibətlərdə müxtəlif forma və zaman anında informasiya həm ictimai, həm də özəl mülkiyyət ola bilər. Ona görə də zaman kecdikcə informasiya və bilik özəl mülkiyyət dərəcəsindən ictimai mülkiyyətə keçir, informasiya və biliyin ictimai fondunu formalaşdırır.

Vəzyyətdən asılı olmayaraq informasiya bazarın eyni zamanda müəyyən subyektlərinin tələblərini təmin edir, məqsədlərinə çatmağa kömək edirlər. Bütün bunlar informasiya qiymətliliyi olan informasiya və məhsulun istifadəçi mənfətinin olmasına zəmin olur.

İnformasiyanın iqtisadi qiymətliliyi əmək prosesiində yaradılır. Bunun üçün müəyyən xərclər və yatırımlar tələb edilir. İqtisadi fəaliyyətin məhsulu və ya ehtiyatı olan informasiyanın qiymətinin yaradılması mexanizmi fərqli xüsusiyyətlərə malikdir. Əgər maddi məhsulların və xidmətlərin qiymətlərinin əsas təyinedicisi istehsal xərcləri olduğu halda, informasiya məhsullarının qiymətinin əsas təyinedicisi onun gəlirli olması, daha dəqiq desək, onun gələcəkdə istifadə edilməsindən alınan səmərədir. Alıcı üçün informasiyanın səmərəliliyi biliyin köməyi ilə alınan nəticənin səmərəliliyidir.

Sahibkarlıq fəaliyyətində informasiyanın qeyri-müyyənliyin və riskin azaldılması vasitəsi kimi istifadəçiyə qiymətliliyi qəbul edilən qərarın səmərəliliyi, səviyyəsi və qeyri-müəyyənliyin azaldılması baxımından asılıdır. Bilik gələcəkdə əldə ediləcək mənfəətə əsasən kommersiyalaşdırma məhsulu (texnologiya, əmək vasitəsi və s.) kimi qiymətliliyə malikdir.

Beləliklə, iqtisadi fəaliyyətdə formasından asılı olmayaraq informasiyanın yaranması və onun istifadəsi digər ehtiyatların istifadəsindən(kapital, əmək və təbii ehtiyatlar) köklü şəkildə fərqlənir. Bu da informasiyanın istehsal sahəsində dövrü xüsusiyyətlərinin özəlliklərinə təsir edir. İnformasiya və onun ali forması olan biliyin, informasiyanın istehsalı prosesinin təhlilinin və onun ehtiyat və məhsula çevrilməsinin öyrənilməsinə maraq gündən-günə artır.

Aydındır ki, informasiya iqtisadiyyatı şəraitində yeni informasiya siqnallarının və biliyin emalı sürəti və keyfiyyəti ön plana gətirilir. İqtisadi inkişafa istiqamətlənmə müəssisənin, bazarın və milli iqtisadiyyatın dayanıqlılığına və qeyri-müəyyənliliyinə təsir edir.

İqtisadi fəaliyyətdə ehtiyat kimi çıxış edən informasiyanın fərqləndirici xüsusiyyətlərindən biri onun müəyyən dəqiq vaxtda istifadə edilməsidir.

Digər xüsusiyyəti: istehsalatda maddi ehtiyat kimi istifadə edilən informasiya öz qiymətini bu prosesdə istehsal edilən yeni məhsul və xidmətlərin üzərinə əlavə edir və nəticədə istehsal dövrünün sonunda varlığını bitirir. Bu halda informasiya ehtiyat kimi məhv olmur, istehsalda istifadədən sonra aktuallığın itirilməsi və ya onun gələcəkdə istifadə edilə bilmədiyi üçün iqtisadi qiymətliliyini itirir.

İnformasiya müəyyən zaman məhdudiyyəti xüsusiyyətinə malikdir. Ona görə də informasiyanın tətbiqindən alınan səmərə onun qəbul və istifadə sürətindən asılıdır.

Bütün ehtiyatlarda olduğu kimi informasiya ehtiyatının yayılması və mübadiləsinin əsas üsullarından biri bazardır. İnformasiya bazarı müəyyən xüsusiyyətlərinə görə digər bazarlardan fərqlənir. İnformasiya bazarı mal və xidmətlər bazarına məxsus olmayan özəlliklərə malikdir. Bu bazarın aqentlərinin fəaliyyəti də digərlərindən fərqlənir. Bütün bunlar informasiya bazarının tədqiq edilməsini, təşkilati məsələlərin öyrənilməsini, heyətin hazırlanmasını, tənzimlənməsini praqnozlaşdırılmasını şərtləndirir. İnformasiya bazarı digər bazarların tərkib hissəsi deyil.

Təcrübə göstərir ki, sosial-iqtisadi mühitdə informasiyaya alıcı tapmaq asan olmur. İctimayyət bir çox istehsal və ticarət üçün yararlı olan informasiyanı mal-pul münasibətlərində çıxarmaq istəyir. Bura həyat şəraiti haqqında, təhsildə istifadə edilən biliklər, elm və elmi-texniki fəaliyyəti dəstəkləyən, səhiyyə haqqında informasiya aiddir. Bu informasiyaların hazırlanması və yayılması xərclərini dövlət öz üzərinə götürür.

Beləliklə, müəyyən olur ki, informasiya istənilən iqtisadi aqentə lazımdır. Digər tərəfdən istehsalçı da öz əldə etdiyi informasiya ilə də bölüşməyə maraqlıdır. Bu isə informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə həyata keçirilir.

**Nəticə**

İnformasiya strukturuna görə real qiymətə malikdir. Birbaşa tətbiq üçün olan informasiya – xüsusi struktura ehtiyacı var, bunun da qiyməti var. İnformasiyanın xüsusiyyəti ənənəvi ehtiyatların anoloji xüsusiyyətlərinə uyğun gəldiyindən informasiya istehsalının təhlilində bir çox iqtisadi göstəricilərin (qiyməti, məbləği, tutumlar, gəlir və s.) istifadəsinə zəmin yaradır.

İnformasiya iqtisadi ehtiyat kimi məhdud sayda mübadilə üçün nəzərdə tutulur. Bu halda ona ödənişli təlabat olur.

İnformasiyanın qiymətliliyi və ya səmərəliliyi istifadəçiyə əlavə azadlıq vermək imkanından ibarətdir. İnformasiya mümkün alternativlər imkanını genişləndirir və onun nəticəsini düzgün qiymətləndirməyə kömək edir.

İnformasiya ehtiyatu – ayrıca sənədlər və ya sənəd massivləri, informasiya sistemlərində sənəd və sənəd massivləridir (kitabxana, arxiv, fond, verilənlər bankı, digər informasiya sistemlərində).

Sənəd massivləri öz-özlüyündə yaranır. Onlarda müxtəlif formalarda insan bilikləri verilir. Beləliklə, informasiya ehtiyatları – insanlar tərəfindən cəmiyyətdə sosial istifadə üçün yaradılmış və maddi daşıyıcılarda qeyd ounan biliklərdir.

Cəmiyyətin informasiya ehtiyatlarını bilik kimi qəbul etsək, onda informasiyanı toplayan, cəmləşdirən, təhlil edən, yaradan və s. insanların əməyidir.

Bu biliklər sənəd, verilənlər bazası, bilkilər bazası, alqoritm, kompüter proqramı, ədəbiyyat, elmi və s. şəklində maddiləşdirilir.

Ölkənin, regionun, təşklatın informasiya ehtiyatları strateji ehtiyat kimi qiymətləndirilməlidir. Onlar vacibliyinə görə məhsul, enerji, faydalı qazıntılar və s. ehtiyatlara bərabərdir.

Dünya informasiya ehtiyatlarının inkişafı aşağıdakı mühüm iqtisadi elementlərin yaranmasına imkan verir:

- informasiya xidmətləri üzrə fəaliyyəti qlobal insan fəaliyyətinə çevirməyə;
- dünya və dövlət daxili informasiya ehtiyatları bazarını formalaşdırmağa;
- region və dövlətin verilənlər bazası ehtiyatlarını yaratmağa;
- firma, bank, birja, istehsalat, ticarət və s. yerlərdə informasiyanın yerində istifadə edilməsi hesabına verilən qərarların operativliyini artırmağa.

İnformasiya ehtiyyatlarının yaranması sistemləşdirilərək istifadəsi bilik iqtisadiyyatının formalaşmasına, son nəticədə onların əsasında iqtisadi inkişafın innovasiyalar əsasında qurulması üçün mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. Гладышева А. В. Проблемы человеческого капитала Тамбовской области при вхождении в информационное общество // Социально-экономические процессы и явления. Тамбов, 2012. № 12.
2. Климов С. М. Интеллектуальные ресурсы общества / С.М. Климов. СПб.: ИВЭСЭП, Знание, 2002. - 199 с.
3. Джабраилов М. А. Образование как сфера формирования экономического интереса социального субъекта // Вестник Тамбовского университета. Серия Гуманитарные науки. Тамбов, 2009. № 1. С. 313-318.
4. Климов С. М. Интеллектуальные ресурсы общества. СПб., 2002.
5. Кубка А. Интернет-реклама: характеристики и возможности // Маркетинговые коммуникации. № 3. 2009.
6. Шуть О. Н. Информация как экономический ресурс. URL: http://www.cfin.ru
7. Юрьев В. М. Социально-экономическая среда образовательного пространства новой России // Психолого-педагогический журнал Гаудеамус. Тамбов, 2002. Т. 2. № 2. С. 5-2.

## *МЕСТО ИНФОРМАЦИИ В ЭКОНОМИКЕ ЗНАНИЙ*
***Гукхан Узкундакджи***

*В статье раскрыта роль информации в экономике знаний. Автор исследовал сходства и различия между информацией, данными и знанием, дал их свойства. В результате информация оценена в качестве стратегического ресурса.*
***Ключевые слова:*** *экономика знания, информация, данные, знание, информационное обеспечение.*

## *THE LOCATION OF THE INFORMATION IN THE KNOWLEDGE ECONOMY*
***Gukhan Uzkundakdjı***

*The article studies the role of information in the knowledge economy. The author studied the similarities and differences between information, data and knowledge, given their properties. As a result, information is evaluated as a strategic resource.*
***Keywords:*** *economy of knowledge, information, data, knowledge, information support.*

***Rəyçi: i.e.d., prof., S.H. Pürhani***